**İdxal olunan qırmızı istiot və qovrulmuş araxis məhsullarında aşkarlanan uyğunsuzluqlara dair məlumat**

**(31 iyul 2024)**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin həyata keçirdiyi nəzarət tədbirləri çərçivəsində “Lüks EXP” MMC-nin Özbəkistan Respublikasından idxal etdiyi “Sam Ekspres Savdo Plus LLC” müəssisəsinin istehsalı olan ümumi çəkisi 10200 kq üyüdülmüş qırmızı istiot məhsulu partiyalarından nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim olunub. Müayinələr nəticəsində məhsul partiyasında “Aflatoksin B1” miqdarının normadan artıq olduğu aşkarlanıb.

Bundan başqa, "Food Fish" MMC tərəfindən Çin Xalq Respublikasından idxal olunan (25.12.2023-cü il istehsal tarixli, 25.12.2025-ci il son istifadə tarixli) ümumi çəkisi 25100 kq olan “JUNAN RUIXING PEANUT FOOD CO. LTD.” müəssisəsinin istehsal etdiyi qovrulmuş araxis məhsulu partiyasından götürülən nümunələrin müayinələri nəticəsində “Aflatoksin B1” miqdarının normadan artıq olduğu müəyyən edilib.

Hər iki faktla bağlı qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görülüb. İstehlaka yararsız qida məhsulları məhv edilib.